

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 10 (20.911)

*18 yanvar 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Əfqanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Şaker Kargarı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi işinə verdiyi töhfəyə görə səfir Şaker Kargara təşəkkürünü bildirdi. Prezident İlham Əliyev səfiri öz ölkəsinin ticarət və sənaye naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, sənaye və digər sahələrdə inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əməkdaşlığımızın bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olundu.

* * *

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupunun "2013-cü ilin adamı" mükafatının təqdim olunması mərasimi keçirilmişdir.

## Naxçıvan Muxtar Respublikasının səhiyyə işçilərinə "Əməkdar tibb işçisi" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə:

Adgözəlov Rza Məmməd oğluna

Ağamalıyev Hümbət Fərmayıl oğluna

Əsədova Nadilə Məmməd qızına

Zamanova Nazirə Həsən qızına – **"Əməkdar tibb işçisi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 yanvar 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında daxili işlər orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Əliyev Pərviz Ramiz oğlu

Həsənov Tahir Tapdıq oğlu – "**Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı;

Əkbərov Elmin Aydın oğlu

Əsədov Mənsur Sabir oğlu

Quliyev Aydın Yusif oğlu

Qurbanov Şahin Əsgər oğlu

Mehdiyev Orxan Nadir oğlu

Məmmədov Elnur Tariyel oğlu

Məhərrəmov Şəhriyar Dadaş oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 yanvar 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında ədliyyə sahəsində səmərəli fəaliyyətlərinə görə:

Cəfərov Rafət Telman oğlu – "**Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı;

Ağayev Rayiq Bəhman oğlu

Cəlilov Rəşad Elşad oğlu

Əsgərov Məzahir Əkbər oğlu

Gülməmmədova İsayə İsa qızı

İsmayılov Bayram Həsən oğlu

Quliyev Məcnun Abbasqulu oğlu

Nəcəfov Ramazan Zeynal oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 yanvar 2014-cü il*

# Naxçıvanda Məhəmməd Peyğəmbərin mövludu günü qeyd edilmişdir

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"İslam dininin banisi həzrəti Məhəmməd Peyğəmbərin mövlud günü bizim böyük bayramımızdır".***

Hicri təqvimi ilə Rəbbiul-əvvəl ayının 12-17-nə təsadüf edən Mövlud gecəsi həzrəti Məhəmməd Peyğəmbərin doğum günüdür. İslam dininin təşəkkül tapmasında və bütün dünyaya yayılmasında böyük xidmətləri olan, daim insanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən Məhəmməd Peyğəmbərin mövlud günü islamın əziz bayramı kimi bütün müsəlmanlar tərəfindən qeyd edilir.



Yanvarın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki "Came" məscidinə gəlmiş, həzrəti Məhəmməd Peyğəmbərin mövlud günü münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.





İnsanları humanizm və bəşəri ideyalar ətrafında birləşdirən İslam dini tarixən xalqımızın dünyagörüşünün formalaşmasında və dini-mənəvi dəyərlərimizin inkişafında müstəsna rol oynamış, Azərbaycanda islami dəyərlərin qorunub yaşadılmasına xüsusi diqqət yetirilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-din münasibətləri bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, mütərəqqi dini dəyərlər və ənənələr həmişə uca tutulur. Naxçıvan Muxtar Respublikasında da islami dəyərlər qorunub yaşadılır, yeni məscid binaları tikilərək istifadəyə verilir, dini mərasimlər keçirilir. İslamın digər bayramları kimi, Məhəmməd Peyğəmbərin mövludu günü də hər il muxtar respublikada qeyd olunur.

Tədbirdə "Qurani-Kərim"dən ayələr oxunmuş, ölkəmizə əmin-amanlıq, inkişaf və tərəqqi arzulanmışdır.

Muxtar respublikanın rayonlarında da Məhəmməd Peyğəmbərin mövlud günü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# 20 Yanvar faciəsindən 24 il ötür



## 20 Yanvar – Azərbaycan xalqının qəhrəmanlıq və şərəf tarixi

**Hər bir xalqın hansı dərəcədə milli birliyə, milli iradəyə və milli özünüdərkə malik olması məhz onun üzləşdiyi ən çətin anlarda mövcud proseslərə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 24 il əvvəl üzləşdiyimiz belə bir məqamda xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə yeni bir mübarizə səhifəsi yazdı – 20 Yanvar səhifəsi.**

**20 Yanvar tariximizə faciəvi günlərdən biri kimi düşsə də, əslində, bu gün xalqımızın qəhrəmanlıq tarixinin bir parçasıdır.**

Təpədən dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdir. SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Bakıda misligörünməmiş faciəyə gətirib çıxardı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Yanvarın 19-dan 20-nə keçən gecə dinc azərbaycanlı əhaliyə qarşı misligörünməmiş vəhşiliklər edilmiş, sovet ordusunun xüsusi təlim keçmiş qoşun hissələri 3 istiqamətdə Bakıya yeridilərək ağır cinayət törətmişdir. 20 Yanvar faciəsi zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir. Terror əməliyyatı zamanı yaşayış evləri atəşə tutulmuş, təcili yardım maşınları, yol kənarında dayanan avtomobillər tankların altına salınıb əzilmiş, yaralılara yardım göstərən tibb işçiləri güllələnmişdir. Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. O vaxtkı sovet imperiyasının ideoloji təbliğatçısı olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində əsl həqiqətləri təkzib edir və yazırdı: *"Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır..."*

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misligörünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın müddəalarını pozmuşdur.

Lakin nə ideoloji təbliğat, nə də əli qana bulanmış Bakıdakı sovet ordu hissələri xalqın müstəqillik, azadlıq arzularını boğa bilmədi. Sovet rəhbərliyində təmsil olunan rəsmilərin qanlı əməliyyatlara birbaşa rəhbərlik etməsi və ən amansız tədbirlərə əl ataraq milli azadlıq mücadiləsinə qalxmış insanların inam və iradəsini sarsıtmaq təşəbbüsləri baş tutmadı. SSRİ-nin digər müttəfiq respublikalarından fərqli olaraq, seçilərək Azərbaycana göndərilən xüsusi ordu kontingentinin əliyalın xalqa qarşı daha amansız hərəkətləri sovet rejiminin iç üzünü bütün dünyaya açıb göstərdi.

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli lider Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı həyata keçirilmiş bu cinayəti pisləmiş, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham etmişdir. Ulu öndər Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırmış və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb etmişdir: ***"Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".***

Bu təkcə SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda ölkəni və onun başçısını paytaxtın özündə tənqid etmək deyildi, bu, sözün əsl mənasında, böyük hünər və cəsarət idi. Ulu öndərimiz öz bəyanatında açıq şəkildə o zamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söyləmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etmişdir. Xalqımızın böyük oğlu Heydər Əliyevin 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan xalqına göndərdiyi teleqramda deyilirdi: ***"Bakı şəhərinə sovet ordu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".***

Azərbaycan xalqının ən çətin anında ulu öndər Heydər Əliyev Moskvadan doğma Vətəninə qayıtdı. Həmin dövrdə ölkəmiz parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Görkəmli dövlət xadimi Heydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da o vaxtkı hakimiyyət tərəfindən təzyiq və hədələr göstərilirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Dahi rəhbərin öz xalqına olan sevgisi, xalqın da ona inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdikləri qanlı cinayətlər eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunmuşdur. Onların Sədərəyə və digər sərhəd kəndlərinə hücumu Qanlı Yanvarın ilk səhifəsini yazmışdı. Ancaq naxçıvanlılar düşmənin önündə mərdliklə dayandılar, şəhidlər verərək Azərbaycanın qədim torpağı olan Naxçıvanı qoruyub saxladılar.

20 Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymət ulu öndərimizin rəhbərliyi ilə Naxçıvanda verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderimiz tərəfindən hazırlanan və onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilmiş, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilmişdir. Həmin tarixi sənəddə deyilirdi ki, ***"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır".***

Bu tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması qərara alınmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur. Lakin təəssüflər olsun ki, 1991-1993-cü illər ərzində hadisəyə ölkə səviyyəsində siyasi-hüquqi qiymət verilməmişdir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ümummilli liderimizin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunurdu. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə mümkün olmuşdur.

***"Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı ilin yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, əlil olanların sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar, "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2011-ci il 19 yanvar tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır. Ölkəmizin paytaxtı Bakı şəhərinin Yasamal rayonundakı "20 Yanvar" dairəsində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

Əsrlər keçsə də, 1990-cı il 20 Yanvar hadisəsi heç vaxt yaddan çıxmayacaq, dönə-dönə xatırlanacaqdır. Şəhidlərimizin qanının hədər axmadığını, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, tərəqqimizin bünövrəsinin qoyulduğunu gələcək nəsillər də böyük ehtiramla xatırlayacaqlar.

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".***

***Faciədən 24 il keçir. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalqımız hər il yanvarın 20-də Şəhidlər Xiyabanına üz tutur, azadlığımız uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir.***

***20 Yanvar faciəsi yaddaşımızda və qəlbimizdə əbədiləşərək azadlıq abidəsinə, qəhrəmanlıq nümunəsinə çevrilmişdir. Bu gün hər bir azərbaycanlı o gecə şəhid olan qəhrəman Vətən oğulları ilə qürur duyur, xalq, millət kimi sınmadığımız, məğlub olmadığımız üçün öyünür.***

**"Şərq qapısı"**

## Muxtar respublikamızda 20 Yanvar faciəsi ilə bağlı tədbirlər keçirilmişdir



"20 yanvar hadisələri tariximizin faciəsi olmaqla yanaşı, həm də qəhrəmanlıq səhifəsidir. Bu hadisələr azadlığın və müstəqilliyin qanlar bahasına əldə olunduğunu bir millət olaraq tarixi yaddaşımıza həkk etmişdir". Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən "Tariximizin şərəfli və qəhrəmanlıq səhifəsi" adlı elmi konfransda səsləndirilib.

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev baş verən hadisələrin səbəblərinin, o zamankı proseslərin və nəticələrinin elmi yanaşma baxımından öyrənilməsinin davam etdirilməsinin vacibliyini qeyd edib. Akademik vurğulayıb ki, bu istiqamətdə indiyə qədər ölkəmizdə bir çox fundamental tədqiqatlar aparılıb.

1990-cı ilin yanvarında təkcə paytaxt Bakıda deyil, Naxçıvanda da təcavüzkar qüvvələrin qırğın törətmək cəhdlərinə də diqqətçəkən bölmə sədri bu hadisələrin tarixi baxımdan öyrənilməsinin əhəmiyyətli olduğunu deyib.

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarından AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Ümummilli lider Heydər Əliyev və 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi", tarix üzrə fəlsəfə doktoru Asəf Orucov "20 Yanvar faciəsinə gedən yol", tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "20 Yanvar şəhidləri – iftixar mənbəyimiz", elmi işçi Elnur Kəlbizadə "Qanlı Yanvarın ibrət dərsləri" mövzularında elmi məruzələrlə çıxış ediblər.

Naxçıvan Dövlət Universitetində 20 Yanvar faciəsinin növbəti ildönümü kitab və rəsm sərgiləri, digər ənənəvi silsilə tədbirlərlə qeyd olunur. Bu münasibətlə təşkil olunan mərasimdə əvvəlcə Azərbaycan xalqının müstəqilliyi uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi dərin ehtiramla yad edilmişdir. Mərasimi giriş sözü ilə universitetin rektoru, professor Saleh Məhərrəmov açmışdır.

Sonra Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayevin "20 Yanvar faciəsinin ibrət dərsləri", Hüquq fənləri kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Şükür Məmmədovun "20 Yanvar hadisələri beynəlxalq hüquq prizmasında",



Tələbə Elmi Cəmiyyətinin sədri, hüquqşünaslıq ixtisasının III kurs tələbəsi Ramazan Abdullayevin "Qəhrəmanlıq tariximizin 20 Yanvar səhifəsi" mövzularında məruzələri dinlənilmişdir.

Tədbirdə 20 Yanvar faciəsinə həsr olunmuş slayd və fotosərgi, sənədli film nümayiş etdirilmiş, şeirlər bədii qiraət olunmuşdur.

**Xəbərlər şöbəsi**

**1990-cı il yanvar ayının 15-də Kərki kəndinin müdafiəçiləri sovet hərbçilərinin təkidli tələbi ilə ("daha sizi ermənilərdən qorumaq imkanımız yoxdur, qalsanız, hamınızı girov götürəcəklər" deyəndən sonra) axşam saat 6-7 radələrində Kərkini tərk etdilər. Kərki sovet hərbçiləri tərəfindən yerli sakinlərdən alınıb ermənilərə veriləndə (15 yanvar 1990-cı il) hələ nə Qarabağ işğal olunmuşdu, nə Xocalı faciəsi baş vermişdi, nə Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları ermənilərin əlinə keçmişdi, nə də Sədərək üzərinə erməni hücumları olmuşdu. Kərkinin işğalı 20 Yanvar Bakı qırğınının, dəhşətli Xocalı faciəsinin, işğal olunan rayonlarımızın acı taleyinin və nəhayət, ermənilərin Sədərək üzərinə silahlı basqınlarının başlanğıcı oldu. Kərkinin işğalı Naxçıvanda, eləcə də Azərbaycanın bir çox yerlərində birmənalı qarşılanmadı. Hətta 1988-ci ildən zillət çəkib kəndi qoruyanlara – son patronlarına qədər vuruşub 1990-cı il yanvarın 15-də kəndi əliyalın tərk edənlərə qara yaxanlar, "torpağı qoruya bilmədiniz" və sair deyənlər də oldu...**

# Kərkinin taleyi

Kərkinin son süqut günü – 1990-cı il yanvarın 15-dir. Bəzi məqalə və kitablarda bu tarix səhvən 19 yanvar kimi qeyd edilib, əslində isə son müdafiəçilər kəndi 15 yanvarda tərk ediblər. Kərkidə nələr baş vermişdi, kəndin son müdafiəçiləri kimlər idi, onlar hansı şəraitdə vuruşurdular və kənd necə işğal edildi, bundan çoxları xəbərsiz idi. Həmin günün acı tarixini o günün şahidlərinin, son döyüşün iştirakçılarının xatirələri əsasında yazmağa çalışdıq.

***Kərki kənd sakini (bu yaxınlarda dünyasını dəyişmiş) Abbas Əhmədovun dedikləri:***

– Kərkinin son günü haqda danışmazdan əvvəl bir neçə kəlmə o vaxta qədər yaranmış gərginlikdən və narahatlıqdan danışmaq istəyirəm. 70-dən artıq ailənin, 350 nəfərə yaxın əhalinin yaşadığı kiçik bir kənddə 1988-1990-cı illərdə nələr çəkmişik, bunu bir Allah bilir, bir də Kərki əhalisi. Düzdür, Sədərəkdən, Şərurdan, hətta Naxçıvan şəhərindən də bir çox qeyrətli oğullar köməyimizə gəlib həftələrlə, aylarla bizə dayaq dursalar da, Sədərəkdən 12 km aralıda – İrəvan-Cermuk yolunun 20-30 metrliyində yerləşən kiçik bir kənddə yaşamaq çox çətin idi. Həmin yoldan gün ərzində keçən ən azı 4-5 yüz erməni maşınının hər birindən bir kinayəli söz eşidə-eşidə dözürdük Kərki kəndində. 1988-ci ildən isə asfalt yoldan keçən erməni maşınlarından kəndə atəş açılır, əhali səksəkə içində yaşamağa məcbur edilirdi. 1988-ci ilin ortalarından etibarən kənddə ağsaqqalların iştirakı ilə xüsusi məsləhət qrupları yaradılmışdı. İsgəndər Əliyevlə Əziz müəllim işlərə ümumi rəhbərlik etməklə rayon təşkilatları ilə əlaqə saxlayırdılar. Abbas Vəliyevlə İsmayıl Əhmədov kəndin təchizat məsələləri, ərzaq normalarının bölünməsi işlərinə nəzarət edirdilər. Uzun illər kənddə həkim işləyən İslam İsmayılov erməni təhlükəsi ilə üzüzə qalan kənddə səhiyyə xidmətini təşkil edir, rayon mərkəzindən təcrid olunmuş kənddə tibbi xidmət göstərirdi. O vaxtlar kənddəki yeməkxanada işləyən Əli Orucovla Əli Əliyevə yalnız sovet hərbçilərinə xidmət göstərmək tapşırılmışdı ki, bəlkə, hərbçilər kəndi ermənilərdən yaxşı qorusunlar... Kərki rayon mərkəzindən təcrid olunmuş vəziyyətdə idi.

1988-ci ildən özümüz kənd əhalisinin dəqiq uçotunu aparıb ali silah tuta bilən 45 nəfər siyahıya almışdıq. Hər birində 15 nəfər olmaqla kəndin üç yerində post yaratmışdıq. Sədərəkdən, Şərurdan, ümumiyyətlə, Naxçıvanın müxtəlif bölgələrindən gələn könüllülər də daxil olmaqla, Kərkinin 2-3 il bu vəziyyətdə keşiyini çəkdik... Ancaq 1990-cı il yanvarın 15-i bizim doğma torpağı son müdafiə günümüz oldu.

Yanvarın 15-də səhər saat 4-də güllə səsinə oyandım. Pəncərədən baxanda çoxlu qar yağdığını gördüm. Postdan xəbər tutmaq üçün həyətə çıxmaq istəyirdim ki, "motor damı" deyilən tərəfdən bir güllə açıldı. Bu səsdən sonra asfalt tərəfdən ermənilər həyətimizə yağış kimi güllə yağdırmağa başladılar. Dünən gecəni də postda olub indi bizim evdə gözünün acısını almaq istəyən Xəlili çağırıb həyətə ermənilər dolduğunu və mühasirədə qaldığımızı bildirdim. Səhər saat 8-ə qədər evdən çıxmağımız mümkün olmadı. Evimiz dərədə olduğundan sağ sahildəki asfaltdan ermənilər, sol sahildən isə bizimkilər atdığından güllə yağışı altında qalmışdıq. Səhər saat 8-ə qədər evin daldasından həyətə dolmaqda olan erməniləri atəşə tutsaq da, həyətdən çıxara bilmirdik. Ancaq motor damı tərəfdən Rzanın beşaçılanının aramsız atəşləri ermənilərin diqqətini yayındıra bildi və biz çətinliklə həyətdən çıxa bildik. Saat 12-yə yaxın kəndi ermənilərdən təmizlədik, amma...

***Kərki kənd sakini Rza Cabbarovun dedikləri:***

– Yanvarın 14-dən 15-nə keçən gecə mən əsas post sayılan motor damında növbədə idim. Telefon xətti ermənilər tərəfindən kəsildiyindən bir neçə gün əvvəl Şərur Rayon Rabitə Şöbəsində işləyən kəndçimiz Samilin köməyi ilə qərargahda hava telefonu quraşdırılmışdı. Axşamüstü zəng vurub soruşdular ki, Ermənistan tərəfdən Cermuk yolu ilə gedən kalondan nə məlumatınız var? Bizdə heç bir məlumat olmasa da, kəndin ən uca yerində yerləşən ehtiyat növbətçilərin vasitəsilə həmin kalonda gedən maşınları sayırdıq. 115 erməni maşını keçdi. Bu, bizi şübhələndirdiyi üçün axşam postlara ayıq olmaq üçün xüsusi tapşırıqlar verdik və səhər saat 4 radələrində 2-3 min erməni kəndi mühasirəyə alanda bildik ki, yuxarıya gedən maşınlar gecə Kərkiyə hücum etmək üçün yığışırmış...

Mənimlə birlikdə həmin gecə motor damında Abbas Əhmədov, Elşad Məmmədov, Elxan Abbasov və Xəlil Xəlilov da növbədə idi. Gecə saat üçə qədər sakitlik olduğu və Xəlil çox yuxusuz olduğu üçün mən Abbasla Xəlili məcbur etdim ki, gedib Abbasgildə 1-2 saat dincəlsinlər. Onlar təzəcə getmişdilər ki, ermənilərin hücumu başlandı və biz həmin postda cəmi 3-4 nəfər olsaq da, səhərə qədər tez-tez yerimizi 2-3 metr dəyişib müxtəlif istiqamətlərdən atəş açmaqla həm ermənilərin kəndə girməsinin qarşısını aldıq, həm də Abbasla Xəlilin dərədəki evdən çıxmalarına kömək edə bildik. Kərkinin son müdafiə günündə Ağoşun düzəltdiyi topdan istifadə edirdik və bəlkə də, ermənilərə qarşı Naxçıvanda ilk top atəşini Ağoş açdı.

***Kərki kənd sakini Ağoşun (Orucov Oruc Hüseyn oğlunun) dedikləri:***

1960-cı illərin sonlarında ermənilər Kərki dağlarında kinofilm çəkirdilər. Filmin çəkilişi başa çatandan sonra çəkiliş yerlərində ermənilərin atıb getdikləri, üstündə ay-ulduz olan türk bayraqlarının, türk geyimlərinin nişanələrini tapandan sonra bizə aydın oldu ki, ermənilər türklərin "zavallı erməniləri" "qırmasına" aid saxta film çəkirmişlər... Həmin filmin çəkiliş meydanında bir də qırıqsalxaq türk topu qalmışdı... Mən böyük maraqla kənd cavanlarını yığıb həmin top lüləsini çəkib həyətimizə gətirdim. Elə bil nə vaxtsa gərəyimiz olacağı ürəyimə dammışdı. Buna görə də mən bir neçə il o topun üstündə işləyib bildiyim şəkildə onu sazladım. Zülmət gecələrdə (dünyanın düz vaxtı olsa da...) o topu bir neçə dəfə atıb sınaqdan da keçirdik... İllərlə çəkdiyimiz zəhmət 1990-cı il yanvarın 15-də, ağır günümüzdə dadımıza çatdı.

Sübh tezdən 2-3 min silahlı erməni kəndi bir neçə tərəfdən mühasirəyə almışdı. Şırran körpüsü, O tay, Köhnə Kərki və Sənəm zağası tərəfdən kəndə tərəf irəliləyən ermənilər Kərkini üzük qaşı kimi mühasirəyə almışdılar. Vəziyyət getdikcə çətinləşirdi. Aramsız atdığımız tüfənglər çox qızdığından onları qarda soyuda-soyuda atsaq da, patronumuz da tükənmək üzrə idi. Kənddə atışma səsindən qulaq tutulurdu. Şırran körpüsü tərəfdən kəndə dolan ermənilər kəndi yandırmağa başladılar. İlk yandırılan Nadirin evi və yeməkxana oldu. Vəlinin, Zeynalın evlərinə, Manafın tayasına da od vurdular. Kəndi bürüyən qara tüstünün vahiməsi içində könüllü döyüşçülərin hamısı nisbətən ucada yerləşən bizim həyətə toplaşırdı. Ermənilər isə aşağıda asfaltın üstündə toplaşıb şadyanalıq edirdilər. Belə bir vaxtda topun lüləsini aşağıya – ermənilərin komasına tuşlayıb yerə bağlanmış zəncirləri bərkidəndən sonra ilk atəşi açdıq. Elə ilk atəşdən pərən-pərənə düşən ermənilər haray-qışqırıqla qaçmağa başlayanda ehtiyat saxladığımız 7 mərminin hamısını atdıq. Yaralıları və meyitləri yük maşınları ilə yola salan ermənilər bir neçə saat susdular: Kərkidən top atəşinin açılması onları çaşbaş salmışdı.

***Haşiyə***

Ağoşun top atəşindən sonra ermənilər susmuşdu, Kərkinin müdafiəçiləri də "atəşkəs"dən istifadə edib hamısı bir yerə, məktəbin binasına toplaşıb vəziyyətdən çıxış yolu axtarırdılar. Sübh tezdən onları narahat edən Nadirin girov götürülməsi, yaxud öldürülməsi xəbəri də yalan olduğundan bir qədər sevinirdilər. Uşaqlardan biri imkan tapıb Nadirgilin həyətinə girmiş və qar üstündə evdən çıxan bir izin gecə qadınları Şurut-Cəhənnəmdərə yolu ilə Sədərəyə endirən Həsən Kazımovun və oğlu Vaqifin həyətinə tərəf getdiyini görüb arxayınlaşmışdılar. Deməli, Nadir də həmin günə qədər Kərkidə qalan 75 yaşlı Nazlı Bağırovanı, 50-52 yaşlı Xavər Həsənovanı, Sona Məmmədovanı səhərə yaxın qarlı dağ yolları ilə piyada Sədərəyə aparan Həsən Kazımova, Mahir İsmayılova, Şahin Kazımova və həyat yoldaşı Xavəri, oğlu Çingizi, 7 yaşlı qızı Fəxrəntacı aparan Vaqifə qoşulub onların Sədərəyə çatdırılmasına kömək etmişdi...

Sübhdən başlayan döyüşlər zamanı başından yaralanan Bəxtiyarın da yarasının ağır və qorxulu olmaması döyüşçüləri sevindirirdi... Ancaq axşam düşür, yenə kənddə tək-tək atəş səsləri eşidilirdi. Rus hərbçiləri top atəşlərindən sonra xeyli narahat olmuş və Kərkinin müdafiəçilərini çağırıb son sözlərini demişdilər: "Daha bizim cəmi 2 patronumuz qalıb. Ermənilər sizi girov götürsələr, kömək edə bilməyəcəyik. Bu gecə baş verəcək hadisələrə biz cavabdeh deyilik..." Artıq tam mühasirə vəziyyətində olan Kərkidə 15-20 nəfərin davam gətirməsi mümkün deyildi. Kənddən çıxmağa isə yeganə yol Şurut yolu ola bilərdi. Ancaq bu dərədə də ermənilərin olub-olmaması şübhəli idi... Bu dərəyə yeganə ümid yolu kimi baxanlardan kimsə həmin dərədən bir nəfərin, arxasınca da 2-3 nəfərin çıxıb gəldiyini görəndə həyəcanını gizlədə bilmədi və ucadan qışqıraraq: – Şurut yolu açıqdır, Yavər gəlir, – dedi...

***Kərki kənd sakini Yavər Ələkbərovun dedikləri:***

– Həmin gecə Sədərəkdə idim. Kərkiyə ermənilərin hücum etdiyini eşidəndə gedib sədərəkli qohumum Əli Səfərovun tüfəngini aldım. Sədərəkdən də bir neçə nəfər – Məhərrəm Bağırov, Məmməd Cəfərov, Xudu Orucov, Mikayıl Həsənov da mənə qoşuldu. Bəhmanın maşını ilə Qaraağacın yaxınlığına qədər gəlib "camışçılıq" deyilən fermaya çatdıq. Orda vəziyyəti bilən çox adam toplaşmışdı. Bizim Kərkiyə getməyimizin mümkün olmadığını desələr də, biz inadımızdan dönmədik. Kəsə dağ yolu ilə gedib axşamüstü Kərkiyə çatdıq. Həmin gün döyüşlərdə iştirak etməsək də, bizim getdiyimiz yolun açıq olduğunu bilən Kərkinin son döyüşçüləri həmin yolla Sədərəyə enə bildilər.

***Son söz əvəzi***

1990-cı il yanvarın 15-də səhər saat 4 radələrindən saat 18-19-a qədər Kərki kəndində şiddətli döyüşlər getdi. Həmin gecə növbədə olan Elxan Abbasov motor damındakı hava telefonu ilə güllə yağışı altında yerə uzanmış vəziyyətdə gümanı gələn yerlərə xəbər versə də, kömək gəlməsi mümkün olmadı. 20-30 nəfər Kərki sakini 2-3 nəfər Şərur Rayon Polis Şöbəsinin əməkdaşı ilə birlikdə 2-3 min silahlı ermənıyə qarşı vuruşsa da, qüvvələrin qeyri-bərabər olması onların davam gətirməsinə imkan vermədi və axşamüstü onlar bir neçə saatlıq fasilədən sonra yenə başlanan güllə yağışı altında Ədalətin həyətindən iki-iki, üç-üç Şurut tərəfə keçib Şurut dərəsindən Sədərəyə enən qarlı dağ yolu ilə kəndi tərk etdilər.

Kərki kəndi ermənilər tərəfindən işğal olundu... Kərkük yadigarı olan qədim yurd, hər qarışında bir neçə minilliyin tarixini yaşadan qədim oğuz yurdu beləcə ermənilərin əlinə keçdi...

İşğal olunan digər Zəngəzur, Göyçə, Basarkeçər, Vedibasar mahalları kimi; Qarabağ, Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Ağdam, Füzuli, Cəbrayıl rayonları kimi...

**Vaqif MƏMMƏDOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

## 20 Yanvar faciəsi qurbanlarının xatirəsi yad edilmişdir

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gümüşlü Kənd Mərkəzində 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş anım mərasimi keçirmişdir. Mərasim iştirakçıları əvvəlcə Azərbaycanın istiqlaliyyəti və müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsini sükutla yad etmişlər.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev bildirmişdir ki, Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvar hadisələrindən 24 il keçir. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq bu faciə ölkəmizdə hər il ümumxalq hüzn günü kimi geniş qeyd edilir. Bununla belə, həmin faciəli günü böyük qürur hissi ilə xatırlayırıq. Çünki 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı bütün dünyaya nümayiş etdirdi ki, o, yenilməzdir, qəhrəmandır və onun iradəsini sındırmaq mümkün deyil.

Mərasimdə çıxış edən Gümüşlü kənd ərazi ilk partiya təşkilatının sədri Məlahət Qafarova, Gümüşlü kənd tam orta məktəbi ilk partiya təşkilatının sədri Könül Əhmədova, Şahbulaq kənd ərazi ilk partiya təşkilatının sədri Mirabbas Eminov və başqaları Qanlı Yanvar faciəsindən danışaraq bu cinayətin yüz ildən artıq bir dövr ərzində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı siyasətinin davamı olduğunu vurğulamışlar. Bildirilmişdir ki, bu tarix daim yad edilməli, nəsillərdən nəsillərə ötürülərək unudulmamalı, göstərilən qəhrəmanlıq, şücaət, xalq birliyi və həmrəyliyi hər bir azərbaycanlı üçün örnək olmalıdır.

## Milli mücadilə və Qanlı Yanvar

### *Bu mövzuda elmi-praktik konfrans keçirilib*

***Dünən Naxçıvan Müəllimlər İnstitutunda "Milli mücadilə və Qanlı Yanvar" mövzusunda elmi-praktik konfrans keçirilib.***



Konfransı giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq bildirib ki, 20 Yanvar Azərbaycan tarixinə təkcə faciə deyil, həm də qəhrəmanlıq səhifəsi kimi daxil olub. Bu hadisə ölkəmizə qarşı ərazi iddiaları irəli sürən ermənilərin təcavüzkar hərəkətlərindən və keçmiş sovet rəhbərliyinin onlara havadarlığından hiddətlənən, qəti etirazını bildirən geniş xalq kütləsinin qəhrəmanlıq nümunəsi, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan Vətən övladlarının şəhidlik zirvəsinə ucalmasının ifadəsi kimi tarixdə qalacaqdır.

Konfransda institutun əməkdaşlarından tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarovun "20 Yanvar Azərbaycan xalqının şərəf tarixidir", pedaqogika üzrə fəlsəfə doktoru Rövşən Vəliyevin "20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsində ümummilli liderimiz Heydər Əliyevin rolu" mövzularında məruzələri dinlənilib.

Sonda tələbələr 20 Yanvar faciəsinə, şəhidlərimizə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

Konfransa institutun rektoru Oruc Həsənli yekun vurub.

## Bir dərs saatı 20 Yanvara həsr olunmuşdu

1990-cı il yanvarın 20-də öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. 20 Yanvar faciəsindən 24 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş günün ağrı-acısını unutmur, öz qəhrəman övladlarını ehtiramla yad edir.

Dünən muxtar respublikamızın ali, orta ixtisas və ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunmuşdu. Bu dərslərdə həmin faciə bir daha xatırlanmış, 1990-cı il hadisələri barədə şagird və tələbələrə ətraflı məlumat verilmiş, xalqımızın ümummilli lideri Heydər Əliyevin 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi və faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördüyü mühüm işlərdən bəhs edilmişdir.

**Xəbərlər şöbəsi**




# Qəhrəmanlıq tariximizdən danışan eksponatlar

***Qəhrəmanlıq tariximizi özündə qoruyub saxlayan mədəniyyət müəssisələrindən biri də Naxçıvan şəhərindəki Xatirə Muzeyidir. Xatirə Muzeyi xalqımızın vətənpərvər övladlarının xatirəsinin əziz tutulması və gənclərimizə vətənpərvərlik hisslərinin aşılanması kimi müqəddəs bir vəzifəni yerinə yetirmək baxımından böyük əhəmiyyət daşıyır.***

Bu günlərdə adıçəkilən mədəniyyət müəssisəsinə üz tutduq. Muzeyin direktor əvəzi Aytən Mikayıllı bizi muzeylə yaxından tanış etdi. Öyrəndik ki, bu mədəniyyət müəssisəsi 1997-ci ildə Şəhidlər Muzeyi kimi yaradılmışdır. 2000-ci ildən isə Xatirə Muzeyi kimi fəaliyyətini davam etdirir. Hazırda muzeydə 2 minə yaxın eksponat var.

XX əsrin əvvəllərindən bu günədək xalqımızın yaşadığı müxtəlif tarixi hadisələri əks etdirən eksponatların yer aldığı muzeydə yaradılmış guşələr gənclərimizin şanlı tariximizə məhəbbət ruhunda tərbiyə edilməsində zəngin mənbədir. Muzeyə gələn hər bir şəxs burada qorunub saxlanılan sənədlərlə tanış olur, keçmişimizə səyahət edir.

Burada 1828-ci il Türkmənçay sülh müqaviləsi nəticəsində Azərbaycan torpaqlarının İran və Rusiya arasında bölünməsi, ermənilərin buraya köçürülməsi prosesinin gedişi, torpaqlarımızın zaman-zaman işğal olunması barədə məlumatlarla tanış olmaq mümkündür.

Muzeyin girişində Azərbaycan Respublikasının xəritəsi yerləşdirilmişdir. Bu xəritədə Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması göstərilmişdir. Muzeyin girişindəki ilk guşədə 1918-ci ilin mart soyqırımına aid müxtəlif sənədlər, eləcə də Qarabağ hadisələrinə, 20 Yanvar və Xocalı faciələrinə dair müxtəlif dillərə tərcümə edilmiş kitablar qorunub saxlanılır.

Guşələrarası yerləşdirilmiş tablolarda isə 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə Azərbaycan xalqının başına gətirilən fəlakətlər əks olunmuşdur.

Ötən əsrin əvvəllərində baş vermiş hadisələri əks etdirən guşədə ermənilərin törətdikləri qırğınlar sənədlər vasitəsilə nümayiş etdirilir. 1918-1921-ci illərdə Naxçıvanda törədilmiş qanlı aksiyaları əks etdirən arxiv sənədlərindən məlum olur ki, həmin dövrdə erməni daşnakları hər gün indiki Ermənistan ərazisindəki müsəlman kəndlərinə, eləcə də Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarına basqınlar etmiş, buradakı günahsız insanlara amansız divan tutmuşlar. Bu guşədə həmçinin Naxçıvanla bağlı Moskva və Qars müqavilələri, Naxçıvana muxtariyyət statusunun verilməsinə dair sənəd və materiallar mühafizə edilir.

Bundan başqa, muzeydə 1937-1939-cu illərə həsr olunmuş "Azərbaycanın repressiya dövrü" guşəsi də yaradılmışdır. Buradakı materiallarda göstərilir ki, bu illərdə 29 min ziyalımız "xalq düşməni" adı ilə güllələnmiş və ya sürgün edilmiş, bəzi ziyalılarımız isə mühacirət həyatı yaşamağa məcbur olmuşlar.

...1988-ci ildən Azərbaycanda azadlıq istəyən, öz müstəqil dövlətini qurmağa çalışan xalqımıza qarşı qanlı terror aktları törədilməyə başlanmışdır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş qanlı cinayətdə naxçıvanlı övladlarımız Rahim Babayev və Teymur Alməmmədov da şəhid olmuşlar. Hər iki şəhidin həyat yolundan bəhs edən guşə yaradılmışdır.

Başqa bir guşədə 20 Yanvar hadisələri ilə eyni vaxtda Sədərəkdə gedən döyüşlərdə şəhid olan Abbasəli Nəzərəliyev, İdris Məmmədov, Asəf Rəhimovun döyüş yolu barədə məlumatlar toplanmışdır.

Qanlı Yanvar faciəsində və Sədərək döyüşlərində şəhid olmuş Vətən övladlarının döyüş yoluna həsr edilən, tarixi-statistik məlumatların yer aldığı guşələrə baxdıqca Vətənimizin belə igid, məğrur qəhrəmanlar torpağı olmasından qürur hissi duyursan. Və düşünürsən ki, 20 Yanvar Azərbaycan xalqının matəm günü olmaqla yanaşı, həm də azadlıq, yenilməzlik, qəhrəmanlıq tarixidir.

Torpaqlarımızın müdafiəsində böyük şücaət göstərən və "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən 211 qəhrəman Vətən övladının 8 nəfəri naxçıvanlıdır. Muzeydə bu qəhrəmanların döyüş yolu ilə tanış olan hər bir gənc qürur hissi keçirir ki, məhz Azərbaycan xalqının övladıdır.

Bu günlərdə muzey daha qələbəlikdir. Qanlı 20 Yanvar faciəsinin 24-cü ildönümü ərəfəsində buraya ali və orta ixtisas məktəblərinin tələbələri, ümumtəhsil ocaqlarının şagirdləri, təşkilatların əməkdaşları gəlir, xalqımızın çətin, mübariz tarixini bir daha xatırlayırlar. Muzey əməkdaşları buraya üz tutanları səmimiyyətlə qarşılayır, onlara yüksək mədəni xidmət göstərməyi, burada mühafizə və nümayiş etdirilən eksponatlar barədə ətraflı məlumat verməyi vətəndaşlıq borcu hesab edirlər.

**Türkan HÜSEYNLİ**

# Milli azadlıq hərəkatının zirvəsi

Naxçıvan Qızlar Liseyində 20 Yanvar faciəsinə həsr olunmuş "Milli azadlıq hərəkatının zirvəsi" mövzusunda tədbir keçirilib. Tədbiri liseyin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva açaraq bildirib ki, 20 Yanvar hadisələri xalqımızın milli azadlıq arzusuna qarşı törədilmiş ən böyük təcavüz faktı, bir qəhrəmanlıq səhifəsidir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini sıx birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Tədbirdə liseyin müəllimlərindən Zivər Kərimova, Heyran Ələkbərova və başqaları çıxış edərək bildiriblər ki, Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansızcasına qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən o vaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının varlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.

Sonda elektron lövhədə 20 Yanvar hadisələrini əks etdirən slayd və şagirdlərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

* * *

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə də Qanlı Yanvar faciəsinin 24-cü ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Naxçıvan şəhərində yaşayan şəhid ailələrinin üzvlərinin, məktəbin müəllim və şagirdlərinin iştirak etdikləri anım mərasiminə Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra məktəbin direktoru Şəraf Qasımova, Naxçıvan Şəhər Təhsil Şöbəsinin əməkdaşı Laləzar Novruzova və başqaları 20 Yanvar faciəsinin başvermə səbəbləri və nəticələri barədə tədbir iştirakçılarına məlumat veriblər.

Sonra məktəb şagirdlərinin ifasında Qanlı Yanvar faciəsinin dəhşətlərini əks etdirən "Azadlıq yolunun 20 Yanvar zirvəsi" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

# 20 Yanvar – ümumxalq hüzn günü



***Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "20 Yanvar – ümumxalq hüzn günü" adlı konfrans keçirilmişdir.***

Konfransı giriş sözü ilə kitabxananın elmi işlər üzrə direktor müavini Rahilə Məmmədova açaraq 20 Yanvar faciəsinin dəhşətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet imperiyasının "sülh ordusu" Bakıya daxil olaraq dinc əhalini, əliyalın insanları güllələbaran etdi. Bu tarix – 20 Yanvar Azərbaycan xalqının yaddaşına müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi əbədi həkk olunan bir tarixdir.

Konfransda kitabxananın şöbə müdiri Nailə Əsədovanın "20 Yanvar tariximizin şanlı səhifəsidir" adlı məruzəsi dinlənilmişdir.

Sonra kitabxananın şöbə müdiri Tamella Əsgərovanın "Şəhidlər Xiyabanı bizim and yerimizdir", kitabxanaçı Gülşən Allahverdiyevanın "Torpaq uğrunda şəhid olanlar heç vaxt unudulmur" mövzularında çıxışları olmuşdur.

Sonda Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri 20 Yanvar şəhidlərinə həsr olunmuş şeirləri bədii qiraət etmiş, şəhidlərə həsr olunan kitablardan ibarət sərgiyə baxış olmuşdur.

**Xəbərlər şöbəsi**

# Tələbələr arasında rəsm müsabiqəsi keçirilmişdir

20 Yanvar faciəsinin 24-cü ildönümü ilə əlaqədar muxtar respublika Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən rəsm müsabiqəsinin yekun tədbiri olmuşdur.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkil etdikləri müsabiqədə 15 rəsm işi nümayiş etdirilmişdir. Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin baş məsləhətçisi Nicat Babayev və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin əməkdaşı Nizami Alıyev çıxış edərək tədbirin mahiyyətindən danışmışlar. Müsabiqədə fəxri yerləri tutmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları və qiymətli hədiyyələr, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin diplomları təqdim olunmuşdur.

**Xəbərlər şöbəsi**

**İtmişdir**

Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi, ev 12-də yaşayan Səfərov Kamil Hüseyn oğluna məxsus 13439 inventar nömrəli texniki pasport və Daşınmaz Əmlakın Dövlət Reyestrindən verilmiş 007758 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qabıllı kəndində Eyvazov Nadir Mənsum oğlunun adına olan həyətyanı torpaq sahəsinin 10211028 kodlu, JN-050A nömrəli şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

**Allah rəhmət eləsin**

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Samrat Gəncəyevaya, anası

**MEYSƏRƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 70